UOT 338.439

*i.ü.f.d., dosent. Şövkət Abuzər qızı YUSUFOVA*
*Azərbaycan Kooperasiya Universiteti*
*e-mail: sovket.yusifova@mail.ru*

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin mövcud vəziyyətini təhlil etmək və ərzaq və qida məhsulları istehsalını genişləndirmək üçün yeni mexanizmləri müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası -** Azərbaycanda ərzaq məhsulları istehsalının artırılması, o cümlədən taxıl və ərzaqlıq buğda istehsalının artırılması, regionlarda kiçik və orta ölçülü qida məhsulları istehsalı müəssisələrinin yaradılması və kəndin inkişafı istiqamətində yeni mexanizmlərin hazırlanması cəlbedici istiqamətlər kimi qəbul edilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Azərbaycanın qlobal iqlim dəyişilikliyi ilə əlaqədar olaraq, əhalinin ərzaq məhsullarına bərabər çıxışının təmin edilməsi yüksək həyat səviyyəsinin əldə edilməsi və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün səmərəli iqtisadi mexanizmlərin hazırlanması və tətbiqi vacib şərtlərdən biri olduğu izah edilir.

**Tədqiqatın nəticələri -** Hazırda ölkəmizdə ərzaqlıq buğda üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması, qida sənayesinin yerli xammalla təmin olunması işğaldan azad olunmuş ərazilərdə mövcud əkin sahələrindən daha səmərəli istifadə etməklə buğda, ət və süd məhsulları istehsalının artırılmasına,resurs ehtiyatlarından səmərəli istifadə etməklə ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verməsinə baxmayaraq hələ də sahədən məhsuldarlığın aşağı olması müşahidə edilir və kəndin inkişafı, sosial problemlərin həlli məsələləri aktual olaraq qalmaqdadır. Qlobal iqlim dəyişikliklərinin baş verməsi və bunun getdikcə mənfiyə doğru meyilli olması ərzaq təhlükəsizliyini təhdid edəcəyi qaçılmazdır. Məhz bu baxımdan əlavə tədbirlərin görülməsi və yeni mexanizmlərin hazırlanması tələb olunur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Kənd təsərrüfatı sektorunun spesifikliyi, əhalinin sosial problemlərinin artması, son vaxtlarda baş verən qiymət artımları, artan risklər və digər amillər ərzaq təhlükəsizliyinin təmin olunmasının iqtisadi təhlükəsizliyin bir növü olaraq seçilməsinin effektivliyini müəyyən edir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kənd təsərrüfatının inkişafında qlobal iqlim dəyişilikləri nəzərə alınmaqla istehsal yerlərinin seçilməsi, kənd təsərrüfatının inkişafı ilə bərabər kəndin inkişafının kompleks təşkili, müasir texnologiyaların tətbiqinin genişlənməsi və qida sənayesi sahələrinin inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsinə imkan verir.

***Açar sözlər: Ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, məhsul, istehsal, özünütəminetmə, bazar, alıcılıq qabiliyyəti.***

## *Giriş*

Son illərdə baş verən qlobal iqlim dəyişiklikləri quraqlığın artmasına, su qıtlığının yaranmasına səbəb olmaqla kənd təsərrüfatına ciddi zərər verməkdədir. Məhz bu baxımdan, bütün dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsi məsələsi daha da aktuallaşmaqdadır. Dünya aqrar-ərzaq bazarında bir çox dövlətlər aqrar siyasətinin məqsəd və istiqamətlərinə yenidən baxmağa başladılar. Belə ki, 2007-ci ildə Aİ ölkələrində ehtiyat torpaqların istehsala cəlb edilməsi, habelə yeni digər ehtiyatların aşkar edilməsi və onlardan səmərəli istifadə olunması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Ərzaq təhlükəsizliyi məsələsi xüsusi əhəmiyyət kəsb edir, çünki bu, hər bir ölkənin bütün vətəndaşlarının sağlamlığına təsir edir və təkcə ərzaq deyil, ümumilikdə ölkənin iqtisadi təhlükəsizliyini təmin edir.Ərzaq təhlükəsizliyi hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir. Bu problemin həlli ilk növbədə yox-

sulluğun azaldılması, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin artırılması ilə bağlıdır [1].

Hər bir ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı xüsusi əhəmiyyət kəsb edir. Odur ki, kənd təsərrüfatı istehsalını və məhsuldarlığını artırmaq üçün resurs potensialından daha səmərəli istifadə edilməsinə, aqrar siyasətin təkmilləşdirilməsinə və iqtisadi-siyasi alətlərin düzgün idarəedilməsinə ehtiyac vardır. İqtisadi rayonların hər birinin iqtisadiyyatında kənd təsərrüfatının payının çox olması, kənd təsərrüfatına investisiyaların artmasını şərtləndirir. Çünki sağlam kənd təsərrüfatı sektoru ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir və ümumi iqtisadi artım üçün ilkin şərtdir. Hazırkı təbii iqlim şəraiti və onun davamlı olaraq əlverişsizliyə meyilli olması səbəbindən gələcəkdə dünyada ağır ərzaq böhranının dərinləşməsinə səbəb olacağı qaçılmazdır.

Aparılan araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyinin səbəbləri müxtəlif amillərdən asılıdır: kənd təsərrüfatının inkişafına və ya ticarətinə təsir edən milli və beynəlxalq siyasətlər, ərzaq qiymətlərinin dəyişməsi, malyariya, vəba və ya vərəm kimi xəstəliklər, silahlı münaqişələr və ya təbii fəlakətlər ərzaq qıtlığına səbəb ola bilər. Qeyd edək ki, Azərbaycanın yerləşdiyi coğrafi-mövqeyi, etibarsız və güvənsiz qonşuların əhatəsində olması daha diqqətli və tədbirli olmağı tələb edir. Ölkəmizdə istehsal olunan əsas kənd təsərrüfatı məhsullarının 90%-i Rusiya bazarlarına ixrac olunur və tez-tez ixraca mane olmaqla siyasi təzyiqlə üzləşirik. Məhz bu baxımdan, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kompleks tədbirlərin görülməsinə, qeyri-neft sektorunun inkişafında yeni iqtisadi mexanizmlərin müəyyən edilməsinə ehtiyac vardır.

Azərbaycanın kənd təsərrüfatı xarakterik xüsusiyyətlərinə görə spesifikdir. İstehsal sahələrini yerləşdirərkən iqlimini, təbii şəraitini nəzərə almaq lazımdır. Bizim hər hektardan əldə edilən taxıl məhsulunda əsas taxıl ixracatçısı ölkələrlə müqayisədə eyni məhsulun istehsalı üçün daha çox maşın, maddi resurslar və insan əməyi tələb olunur. Heyvandarlığın saxlanması və inkişafı təbii iqlim şəraitinə görə çox baha başa gəlir.Eyni zamanda, kənd yerlərində insanların yaşayışı üçün bir çox sosial şəraitin olmaması da kənd təsərrüfatının inkişafına mənfi təsir etməkdədir.Odur ki, kənd təsərrüfatına təkcə iqtisadi baxımdan deyil, milli təhlükəsizlik baxımından da baxmaq tələb olunur.

***Ərzaq təhlükəsizliyinin təmin edilməsinin iqtisadi-siyasi əhəmiyyəti***

Ərzaq təhlükəsizliyi ərzaq məhsullarının mövcudluğundan və əlçatanlığından, yəni tədarükdən, gəlirdən və qiymətlərdən, həmçinin mental dəyərlərə uyğun olaraq ərzaq və qida məhsullarından istifadə vərdişlərindən asılıdır. Qəbul edilən qidanın yalnız kifayət qədər miqdarı deyil, həm də keyfiyyəti də vacibdir. Bundan əlavə, tədarükün və əlçatanlığın sabitliyi ərzaq təhlükəsizliyinin əsas şərtidir, çünki ərzaq qısa müddətə mövcud olmasa belə və ya onun əldə edilməsinin qarşısı qısa müddətə alınarsa, bu, ciddi ərzaq və qida çatışmazlığına səbəb ola bilər. Ölkədaxili bazarlarda ərzaq və qida məhsullarının bolluğu hər kəsin bu məhsullara çıxışını asanlaşdırır. Çünki bazar iqtisadiyyatı şəraitində qiymətlər qıtlığın ölçülməsi üçün mərkəzi dayaq nöqtəsidir, ona görə də kənd təsərrüfatı qiymətlərinə xüsusi diqqət yetirilməsi vacib şərtlərdən biri hesab olunur. Ərzaq təhlükəsizliyi ərzaq bazarının, o cümlədən daxili ərzaq bazarının vəziyyəti ilə əlaqədardır. Bu bağlılıq ilk növbədə yerli istehsal potensialından istifadə səmərəliliyi, başqa sözlə, milli aqrar sahənin inkişaf səviyyəsi ilə şərtlənir [3, s. 13]. Hazırda taxıl istehsalında yaranan problemlər və dünya əhalisinin artması səbəbindən dünya bazarında taxıl məhsullarının, xüsusən də ərzaqlıq buğdanın qiymətinin kəskin qalxması dünya ölkələrinin daxili bazarlarına təsir edərək un və un məhsullarının qiymətinin artmasına səbəb olmuşdur ki, bu əsas taxıl idxalçısı olan ölkələrin ərzaq təhlükəsizliyində ciddi problemlər yaradır. Digər tərəfdən ölkə əhalisinin sayının artması, heyvandarlıq sahəsinin inkişaf etməsi və balıqçılığın inkişafı ərzaqlıq məhsullara və yemə olan tələbatı artırmaqla əkin sahələrinə olan təzyiqi də artırır və eyni zamanda taxıl məhsullarının tədarükünün genişlənməsini şərtləndirir.

Ölkənin kənd təsərrüfatında daha intensiv istehsal və texniki tərəqqi yolu ilə daha yüksək məhsul əldə edilməsi üçün müəyyən addımlar atılmasına baxmayaraq qarşıya qoyulan məqsədə də nail olunmamışdır. Bu özünü əsasən sahələr üzrə məhsuldarlığın bir çox rayonlarda ən aşağı səviyyədə

olmasında da göstərir. Statistik məlumatlara əsasən 2020-ci ildə ölkənin 71 rayonunda buğda əkini həyata keçirilmişdir və 40 rayonda məhsuldarlıq göstəricisi ölkə üzrə orta məhsuldarlıq göstəricisindən (31.7 s/ha) aşağı olmuşdur. Aparılan araşdırmalara uyğun olaraq uzunmüddətli perspektivdə əkinçilikdə yalnız yerin xüsusiyyətlərinə (məsələn, quraqlıq, istilik, torpağın şoranlığı, xəstəlik və zərərvericilərin təzyiqi) və resurs çatışmazlığına, xüsusən də su və torpağa uyğunlaşan yeni məhsul sortları və texnologiyaları hazırlanarsa məhsuldarlığın davamlı şəkildə artırılması mümkündür.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən və iqtisadi inkişafın davamlı olaraq təmin edilməsi üçün ərzaq təhlükəsizliyinə aşağıdakı yanaşma daha məqsədəuyğundur. Ərzaq təhlükəsizliyinin təmin edilməsində əhalinin normal şəraitdə hər bir fərdin sağlam fiziki və sosial inkişafı üçün kifayət qədər kəmiyyətdə və keyfiyyətdə, minimum lazımi miqdarda ərzaq məhsulları əldə etmək imkanını vaxtında məhdudiyyətsiz olaraq təmin etmək üçün alıcılıq qabiliyyətini təmin etmək və fövqəladə vəziyyətlərdə sağlamlığı və performansı qorumaqla təminat səviyyəsini saxlamaq əsas hədəf olmalıdır.

Bazar münasibətləri inkişaf etdikcə qiymət, tələb-təklif və rəqabətlə əlaqədar tənzimlənsə də və real nəticələr əldə edilsə də bu münasibətlərdə aqrar sahənin inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsini daha da yaxşılaşdırmaq üçün dövlətin soail-iqtisadi inkişafa müdaxiləsinə ehtiyac vardır. Dövlətin müdaxiləsi göstərişlərlə deyil, daha çox iqtisadi metodlarla əvəz edilməli, aqrar sahədə əhalinin sosial vəziyyəti ilə əlaqədar diqqət strateji xarakterli məsələlər üzrə, xüsusən, əmtəəlik məhsullar istehsalının artırılması, texniki təminat, maliyyə-kredit, idarəetmə və s. məsələlər üzrə cəmlənməlidir [5, s. 191].

Odur ki, ərzaq təhlükəsizliyi siyasəti, müvafiq olaraq, təkcə istehsalın, xarici ticarətin, məhsulların saxlanmasının və emalının inkişafı deyil, həm də əsas ərzaq məhsullarının ədalətli bölüşdürülməsi, habelə kənd yerlərinin sosial inkişafı problemlərinin sistemli və səmərəli həllinə yönəlmiş tədbirlər kompleksi kimi nəzərdən keçirilməlidir. Yəni kənd təsərrüfatının inkişafı ilə bərabər kəndin inkişafı və ölkənin hər yerində ərzaq məhsullarına əlçatanlıq təmin edilməlidir.

***Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin mövcud vəziyyətinin təhlili***

Ərzaq təhlükəsizliyinin formalaşdırılması dövlət siyasətinin əsas elementidir və bu, əksər hallarda ölkənin aqrar siyasətinin başlıca istiqamətlərinin müəyyən edilməsi üçün əsasdır. Ölkənin ərzaq təhlükəsizliyi birbaşa iqtisadiyyatın əsas arteriyası olan kənd təsərrüfatının inkişaf vəziyyətindən asılıdır. Uğurlu kənd təsərrüfatı siyasəti ilə bir çox problemlər həll edilir, müxtəlif risklərin dərəcəsi azalır. Lakin ərzaq təhlükəsizliyinimöhkəmləndirmək üçün təkcə kənd təsərrüfatı sahələrinin vəziyyətini nəzərə almaq düzgün deyil.Ərzaq təhlükəsizliyi ölkənin ərzaq müstəqilliyini təmin edən və bütün əhalinin aktiv və sağlam həyat üçün lazım olan miqdarda ərzaq təminatına zəmanət verən milli iqtisadiyyatın vəzifəsi kimi müəyyən edilir. Ərzaq təhlükəsizliyi kriteriyalarına gəlincə, ölkə vətəndaşlarının ərzaq təhlükəsizliyini təmin etmək üçün onların istehlak etdikləri ərzaq məhsullarının 80%-i öz kənd təsərrüfatı sektorunda istehsal olunmalıdır. Ərzaq təhlükəsizliyinin real vəziyyəti bu gün sabit görünsə də qlobal istiləşmə fonunda ciddi problemlərlə üzləşə bilər. İqlim dəyişikliyi, qlobal istiləşmə ilə bağlı problemlər müasir dövrdə dünya ictimaiyyətini narahat edən qlobal məsələlər kimi diqqət çəkirlər. Bu problemlərə beynəlxalq təşkilatların yanaşmaları ilə bərabər, hər bir ölkənin özünün fərqli yanaşması mövcuddur [4, s. 50].

Yuxarıda deyilənlərə əsaslanaraq, ərzaq təhlükəsizliyinin əsas məqsədi dövlətin müstəqilliyini, suverenliyini və bütövlüyünü qoruyub saxlamaq üçün əhalinin ərzaq və qida məhsullarına olan ilkin tələbatını və onların ödənilməsini təmin etmək başlıca prioritet məsələ olduğunu deyə bilərik.

Ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq üçün ərzağa əlyetərliyin təmin edilməsi ən mühüm məsələlərdən biridir. Bu zaman bazarda əhalinin istəklərinə uyğun növdə, həcmdə və keyfiyyətdə ərzaq məhsullarının mövcud olması və faktiki istehlak göstəricilərinin yüksəldilməsi təmin olunmalıdır [2, s. 54].

Azərbaycanda ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi cədvəl 1-də verilmişdir.

*Cədvəl 1*

***Azərbaycanda ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, faizlə***

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Dənlilərin (çəltik istisna olmaqla) cəmi | 63.8 | 66.3 | 74.1 | 67.3 | 68,1 |
| - buğda | 52.9 | 58.1 | 64.8 | 57.2 | 57,1 |
| - arpa | 101.7 | 94.4 | 103.1 | 100.2 | 94,6 |
| - qarğıdalı | 71.1 | 70.7 | 82.7 | 80.0 | 86,6 |
| - vələmir | 85.7 | 90.1 | 89.2 | 90.9 | 86,6 |
| - sair növ dənlilər | 32.0 | 20.4 | 82.3 | 88.2 | 93,9 |
| Paxlalılar | 68.4 | 73.7 | 72.0 | 76.1 | 60,3 |
| Kartof | 85.5 | 89.2 | 90.8 | 87.8 | 90,6 |
| Bütün növ tərəvəz | 105.4 | 115.2 | 115.0 | 112.0 | 110,4 |
| Pomidor | 119.0 | 130.9 | 138.0 | 132.5 | 131,0 |
| Bostan məhsulları | 100.2 | 100.2 | 99.7 | 100.8 | 100,8 |
| Meyvə və giləmeyvə | 116.4 | 122.4 | 123.2 | 123.1 | 116,3 |
| Qoz və fındıq | 141.9 | 152.9 | 130.0 | 138.2 | 138,0 |
| Nar | 105.2 | 104.5 | 106.3 | 110.7 | 112,0 |
| Üzüm | 89.2 | 93.4 | 92.5 | 94.3 | 95,8 |
| Bütün növ ət və ət məhsulları | 87.9 | 84.7 | 82.7 | 82.5 | 84,5 |
| mal əti və ət məhsulları | 93.5 | 86.3 | 85.1 | 86.1 | 87,4 |
| qoyun və keçi əti və ət məhsulları | 98.7 | 98.0 | 98.1 | 97.6 | 97,3 |
| donuz əti və ət məhsulları | 7.0 | 5.6 | 5.5 | 5.3 | 4,7 |
| quş əti və ət məhsulları | 79.1 | 79.7 | 75.9 | 74.6 | 79,0 |
| Süd və süd məhsulları | 87.7 | 86.1 | 86.7 | 86.3 | 83,5 |
| Yumurta | 98.8 | 100.5 | 101.5 | 101.8 | 100,0 |
| Balıq və balıq məhsulları | 82.3 | 81.2 | 83.1 | 82.2 | 81,7 |
| **Sənaye emalından keçmiş bəzi ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi** | | | | | |
| Təmizlənmiş düyü | 10.1 | 23.8 | 19.4 | 18.5 | 14,2 |
| Un (bütün növləri) | 96.1 | 96.0 | 95.9 | 95.6 | 95,4 |
| Yarmalar (bütün növləri) | 17.6 | 29.0 | 26.2 | 24.7 | 34,4 |
| Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək | 99.99 | 99.99 | 99.99 | 99.99 | 99,98 |

*Mənbə:Azərbaycanın ərzaq balansları, stat.gov.az*

Statistik məlumatlardan göründüyü kimi ərzaqlıq buğda istehsalı ilə özünü təminetmə səviyyəsi qırmızı həddən (30%) aşağı olmasa da yüksək də deyildir. 2020-ci ildə əvvəlki illərə (2017; 2018; 2019) nisbətən bir qədər də aşağı düşmüşdür. Bu tendensiya paxlalılara da şamil olunur. Digər məhsullar üzrə isə özünütəminetmə səviyyəsi yüksəkdir. Digər tərəfdən 2020-ci ildə kənd təsərrüfatı bitkilərinin əkin sahələri əvvəlki illərlə müqayisədə (2017;2018;2019) də aşağı düşmüşdür, məsələn 2019-cu ilə nisbətən 5% azalma müşahidə olunmuşdur. 2020-ci ildə ümumi əkin sahəsinin 36.1%-i buğda əkini üçün istifadə olunmuşdur.2020-ci ildə ölkənin buğdaya olan tələbatını təmin etmək üçün 1365.1 min ton buğda idxal olunmuşdur. Qarabağın işğaldan azad olması və resursların düzgün idarə olunması taxıl ehtiyatlarının artmasına imkan versə də qlobal iqlim dəyişikliyinin əlavə problemlərin yaranmasına səbəb olacağı qaçılmazdır.

Onu da qeyd edək ki, ərzaq məhsullarının fiziki əlçatanlığı, ərzaq məhsulları bazarının mövcudluğu, habelə nəqliyyat infrastrukturunun mövcudluğu ilə müəyyən edilir. Eyni zamanda, ərzaq məhsullarının mövcudluğunun mühüm komponenti onun qiymətinin alıcılıq qabiliyyətinə uyğunluğudur, ona görə də ev təsərrüfatlarında istehlak edilən ərzaq məhsullarının orta alış qiymətlərinin

təhlil edilməsinə də ehtiyac vardır; müxtəlif tərkibli ev təsərrüfatlarında əsas ərzaq məhsullarının dəyəri; əhalinin istehlak xərclərinin strukturunda ərzaq məhsullarına xərclər; adambaşına kənd təsərrüfatı məhsullarının əsas növlərinin istehsalının təhlili ərzaq təhlükəsizliyinin indiqatorları hesab edilir.Statistik məlumatlara görə 2020-ci ildə ev təsərrüfatları üzrə aylıq istehlak xərclərinin 43.4%-i ərzaq məhsullarına xərclənmişdir. Hazırda baş verən qiymət artımları xərclərin daha da artmasına səbəb olmaqla alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Gəlirlərin artması ilə xərclərin artması arasında kəskin uçurum yaranmaqdadır ki, bu da öz növbəsində ərzaq təhlükəsizlinə təhdid yaradır. Hesab edirik ki, qeyd edilən göstəricilərin təhlil edilməsi aqrar siyasətin və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün mövcud mexanizmlərin təkmilləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir

## *Nəticə*

Aparılan təhlillərdən əldə edilən nəticəyə uyğun olaraq ərzaq təhlükəsizliyinin ən ciddi problemlərdən biri olaraq daim diqqət mərkəzində olması şərtdir. Bu xüsusən də inkişaf etməkdə olan ölkə üçün daha zəruridir Əhalinin ərzaqla təmin edilməsi fiziki mənada onun həyat fəaliyyətinin təmin edilməsi olduğundan, ərzaq təhlükəsizliyi əsas təhlil obyekti olaraq qalmalıdır. Burada ölkəmizin yerləşdiyi coğrafi ərazi və əhatəsində olduğumuz qonşuların münasibətləri də diqqətə alınmalıdır.

Qeyd edək ki, ərzaq təhlükəsizliyi dövlətin iqtisadi və aqrar siyasətinin əsas məqsədlərindən biridir. Yəni, milli ərzaq və qida təhlükəsizliyi sistemi daimi hərəkətdə olduğundan bu sistemin ideal vəziyyətə doğru hərəkət vektorunu təşkil edir. Bu mənada ərzaq təhlükəsizliyinin təmin edilməsi davam edən bir prosesdir. Eyni zamanda, buna nail olmaq üçün tez-tez inkişaf prioritetlərində və aqrar siyasətin həyata keçirilməsi mexanizmlərində dəyişiklik edilməsi qaçılmazdır.

Aparılan müşahidələr göstərir ki ərzaq istehlakının artması tendensiyası müşahidə olunsa da, bazar infrastrukturunun inkişaf etməməsi nəticəsində onların bütün ölkə üzrə əhaliyə bərabər çıxışının təmin edilməsi problemi hələ də aktual olaraq qalır. Ərzaq təhlükəsizliyinə nail olmağın əsas şərti ərzaq məhsullarının iqtisadi əlçatanlığını müəyyən edən gəlir artımı və alıcılıq qabiliyyətinin yüksəldilməsidir. Digər tərəfdən ərzaq təhlükəsizliyinin təmin edilməsində aşağıdakı məsələlərin də öz həllini tapması məqsədəuyğun hesab edilir:

- ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri və mexanizmləri əsasında aqrar sahənin kompleks fəaliyyəti üçün normativ- hüquqi bazanı təkmilləşdirmək;
- ərzaq təhlükəsizliyinin vəziyyətini izləmək, proqnozlaşdırmaq və nəzarət etmək;
- dünya ərzaq bazarlarında baş verən dəyişikliklərə və təbii-iqlim xarakterindəki dəyişikliklərə uyğun olaraq ölkə iqtisadiyyatının sabitliyini qiymətləndirmək;
- Ölkənin ərzaq təminatının dayanıqlılığını qiymətləndirmək;
- ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət informasiya ehtiyatlarını formalaşdırmaq.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 mart 2001-ci il 640 №-li Sərəncamı.
2. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 177 s. https://mida.gov.az/documents/
3. E.A.Quliyev. “Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri”. Monoqrafiya, Bakı- “Elm nəşriyyatı”- 2013-308 s.
4. E.A.Quliyev. “Ərzaq əlçatanlığına strateji yanaşma”, “Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri” mövzusunda respublika elmi-praktiki konfransının materialları. Bakı-2018, 496 s.
5. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı-2016-655 s.

*Шовкет Абузар кызы Юсуфова*
*доктор философии по экономике, доц. АУК*

**Приоритеты обеспечения продовольственной безопасности в Азербайджане**

*Резюме*

**Целью исследования-** является проанализировать текущее состояние обеспечения продовольственной безопасности страны и определить новые механизмы для производства продуктов питания и продуктов питания.

**Методология исследования**- состоит в том, чтобы увеличить производство продуктов питания в Азербайджане, включая производство зерна и продуктов питания, а также развитие новых механизмов в регионах малых и средних продуктов и разработка новых механизмов в развитии деревни.

**Важность исследования объясняется**- что глобальные климатические изменения в Азербайджане являются одним из важных условий и подготовка эффективных экономических механизмов для обеспечения высокого уровня жизни и доступа к продовольственной безопасности и обеспечению продовольственной безопасности.

**Результаты исследований-** ресурсы все еще существует низкая производительность, а развитие деревни имеет отношение к решению социальных проблем. Глобальные климатические изменения понесены и склонны пренебрегать этим, как все чаще склонны к небрежности. С этой точки зрения требуются дополнительные меры и подготовка новых механизмов.

**Подлинность и научные инновации исследования -** развитие сельскохозяйственного сектора, повышенная цена увеличивается, растущие риски и другие факторы определяют эффективность отбора продовольственной безопасности как тип экономической безопасности. В сельском хозяйстве в сельском хозяйстве дано глобальное изменение климата, Выбор производственных мест, эквивалентных сельскому хозяйству, развитию развития деревни, расширение современных технологий и развития пищевой промышленности, обеспечивает продовольственную безопасность

***Ключевые слова: Продовольственная безопасность, сельское хозяйство, продукт, производство, самодостаточность, рынок, покупательская мощность.***

*Shovkat Abuzar Yusufova*
*Doctor of Philosophy in Economics,*
*Associate Professor, ACU*

**Priority directions of ensuring food security in Azerbaijan**

*Summary*

**The purpose of the study**- is to analyze the current state of food security in the country and to identify new mechanisms for expanding food and food production.

**The methodology of the research**- is to increase food production in Azerbaijan, including grain and food production, and the development of new mechanisms in the regions of small and medium-sized products and developing new mechanisms in the development of the village.

**The importance of the study**- is explained that Azerbaijan's global climatic change is one of the important conditions and the preparation of effective economic mechanisms to ensure high standard of living and access to food security and ensuring food security.

**The results of the research -** Although currently reduced the production of food industry in our country, to increase the production of wheat, meat and dairy products in the existing areas of the food industry, to increase the production of resource resources, using resource resource resource resources There is still low productivity, and the development of the village is relevant to

solving social problems. Global climatic changes are incurred and inclined to neglect it as it is increasingly inclined to negligence. From this point of view, additional measures are required and preparing new mechanisms The authenticity and scientific innovation of the study - the development of the agricultural sector, increased price increases, growing risks and other factors determine the effectiveness of the selection of food security as a type of economic security. In agriculture in agriculture Given global climate change, the selection of production places, the development of the village development, expansion of modern technologies, expansion of modern technologies and the development of food industry allows food safety.

**The authenticity and scientific innovation of the study -** the development of the agricultural sector, increased price increases, growing risks and other factors determine the effectiveness of the selection of food security as a type of economic security. In agriculture in agriculture Given global climate change, the selection of production places, the development of the village development, expansion of modern technologies, expansion of modern technologies and the development of food industry allows food safety.

***Key words: Food security, agriculture, product, production, self-sufficiency, market, purchasing capacity.***